AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRİ

# ƏMR

№ 64 "09" 02 2016 il

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 fevral 2016-cı il tarixli 38 nömrəli qərarının icra olunması haqqında

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə 6 fevral 2016-cı il tarixli 38 nömrəli qərarının icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci maddəsini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 fevral 2016-cı il tarixli 38 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin rəhbərlərinə tapşırılsın:

- Cari semestrdən başlayaraq təhsilalanların təqaüdlərinin "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"na uyğun təyin olunmasını və ödənilməsini təmin etsinlər;
- Təqaüd komissiyasının formalaşdırılmasını, tələbələrin ixtisaslar üzrə ÜOMG-nin hesablanması, sıralama siyahılarını və buna əsasən təqaüd siyahısını, fənlər üzrə akademik nailiyyətlərə görə təqaüd növlərinin müəyyənləşdirilməsini və digər təşkilati məsələlərin həllini təmin etsinlər.

3. Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsi (Y.Piriyev) və Maliyyə şöbəsi (R.Orucov) Qaydadan irəli gələn məsələləri həll etsinlər və digər zəruri tədbirləri həyata keçirsinlər;

AZ1008, Azərbaycan, Bakı, Xətai prospekti 49, tel: +994 12 496 33 11, faks: +994 12 496 34 83, 496 34 90
e-mail: office@edu.gov.az, www.edu.gov.az

4. İnformasiya şöbəsi (E.Əliyev) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, əlavələrlə birlikdə Nazirliyin internet səhifəsində yerləşdirilməsini və çoxaldılıb yerlərə göndərilməsini təmin etsinlər;

5. Əmrin icrasına nəzarət Aparatın rəhbərinə (M.Eynullayev) tapşırılsın.

Mikayıl Cabbarov

İNFORMASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR